BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2010*

# AVROPA İTTİFAQI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFI

**M.Ə.BAXIŞOV**
***Bakı Dövlət Universiteti***
***m_bakhishov@hotmail.com***

*Məqalə Avropa İttifaqı ilə Rusiya Federasiyası arasında qarşılıqlı münasibətlərin inkişaf tarixinə həsr olunmuşdur. Burada Avropa İttifaqı ilə Rusiya arasında münasibətlərin siyasi- hüquqi əsasları və faktiki materiallar əsasında müxtəlif istiqamətləri şərh edilir, həmçinin Avropa İttifaqı ilə Rusiya arasındakı əlaqələrin müasir beynəlxalq münasibətlərə təsirindən danışılır.*

**Açar sözlər:**
Azərbaycan dilində: Avropa İttifaqı, Rusiya Federasiyası, əməkdaşlığın zəruriliyi və formaları, təhlükəsizlik, terrorçuluq, Korfu bəyannaməsi, Şərqə doğru genişlənmə

Avropa İttifaqının xarici siyasətinin əsas istiqamətlərindən birini Rusiya Federasiyası ilə əməkdaşlıq təşkil edir. Onların əməkdaşlığı çoxsaylı iqtisadi və siyasi amillərə əsaslanır. 1991-ci ilin dekabrında Avropa İttifaqının Rusiyanı müstəqil dövlət kimi tanımasıdan sonra tərəflərin imzaladığı sazişlər onların əməkdaşlığının hüquqi əsasını təşkil edir. Rusiya Avropanın ən böyük ölkəsidir. Rusiyanı Avropa ilə ümumi tarix, ümumi ənənələr və mənəvi dəyərlər birləşdirir.

Soyuq müharibədən sonra Rusiyada iqtisadi və siyasi həyatın demokratiya və bazar münasibətləri əsasında yenidən qurulması prosesi başlandı. Bu proses Aİ ilə RF arasında əməkdaşlıq üçün əlverişli şərait yaratdı. Aİ Rusiyanı MDB-nin siyasi və iqtisadi lideri hesab edirdi. Aİ çalışırdı ki, Rusiya nüvə silahının yayılmaması rejiminə əməl etsin, həm də Rusiyada demokratikləşmə və bazar iqtisadiyyatının qurulması prosesinə kömək edirdi.

Qarşılıqlı münasibətlər həm tərəflər, həm də Avropa üçün böyük əhəmiyyət kəsb edir. Avropa İttifaqı Rusiyanın əsas ticarət partnyorudur. Rusiyanın xarici ticarətinin 50 %-i Avropa İttifaqı ölkələrinin payına düşür. Rusiya Avropa İttifaqı ölkələrini enerji daşıyıcıları ilə təmin edən əsas ölkədir.

Şərqə doğru genişlənmədən sonra Aİ Rusiyanın birbaşa qonşusu oldu. Mübahisəli sərhəd məsələləri yarandı ki, onları yalnız birgə səylərlə həll etmək olardı. Rusiya ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafını şərtləndirən ən mühüm amil ondan ibarətdir ki, Avropada sabitlik və təhlükəsizlik onların münasibətlərindən bilavasitə asılıdır (1, 298).

Rusiya Avropa İttifaqı ilə əməkdaşlıq edərkən onun imkanlarını və dünya siyasətinə təsirinin artmasını ciddi şəkildə nəzərə alır. Rusiya çoxqütblü dünya tərəf-

darıdır. Aİ ilə əməkdaşlıq çoxqütblük əsasında yeni beynəlxalq qaydanın formalaşmasına kömək edə bilər. Aİ də beynəlxalq münasibətlərdə qüvvə mərkəzi kimi çıxış etmək üçün Rusiya ilə əməkdaşlığın imkanlarından istifadə edir. ABŞ-ın həm Rusiyaya, həm də Avropa İttifaqına rəqib olması onları yaxınlaşdıran amillərdən biridir (4, 381). Rusiya və Avropa İttifaqı həm Avropa, həm də mühüm dünya məsələlərinin həllində eyni mövqedən çıxış edir, dünyanın müxtəlif yerlərində baş verən məhəlli münaqişələrin tənzimlənməsində yaxından əməkdaşlıq edirlər. Müxtəlif səviyyələrdə siyasi dialoq və xüsusi məsləhətləşmələr tərəflərin əlaqələri genişləndirmək üçün istifadə etdiyi əsas diplomatik vasitələrdən biridir. İqtisadi əməkdaşlığın problemləri müxtəlif səviyyəli görüşlər zamanı müzakirə olunur. Bəzən tərəflər iqtisadi əlaqələrdən bir-birinə qarşı təzyiq vasitəsi kimi istifadə edirlər. 1999-2000-ci illərdə Avropa İttifaqı Çeçenistan hadisələri ilə əlaqədar Rusiya ilə iqtisadi əlaqələri zəiflətmişdi. Həm Rusiya, həm də Avropa İttifaqı xarici ölkələrə silah satır ki, bu sahədə də tərəflər arasında rəqabət mövcuddur.

Rusiya beynəlxalq terrorçuluğa qarşı mübarizədə, həm də təhlükəsizlik uğrunda müharibədə Aİ ilə sıx əməkdaşlıq edir. Təhlükəsizlik sahəsində Aİ-nin əsas partnyoru NATO-dur. Rusiya Aİ ilə təhlükəsizlik sahəsində əməkdaşlıq etməklə NATO-nun rolunun zəifləməsinə çalışır.

1992-ci ilin mayında Moskvada Rusiya və Aİ ölkələrinin yüksək səviyyəli görüşləri keçirildi. Tərəflər arasında yeni sazişin imzalanması haqqında razılıq əldə edildi. 1994-cü ilin iyunun 24-də Rusiya ilə Aİ arasında Yunanıstanın Korfu adasında partnyorluq və əməkdaşlıq haqqında saziş imzalandı. 11 bölmə, 112 maddə, 10 əlavə və iki protokoldan ibarət olan saziş sonradan müddəti artırılmaq şərti ilə 10 il müddətinə imzalanmışdı. Korfu sazişi Rusiya ilə Aİ arasında iqtisadi, sosial, siyasi və mədəni əlaqələrin inkişafı üçün möhkəm zəmin yaradan çərçivə sənədi idi. 1996-cı ilin noyabrında Rusiya parlamenti Korfi sazişini təsdiq etdi. Bu saziş Avropa parlamentində təsdiq edildikdən sonra 1997-ci ilin dekabrın 1-də qüvvəyə mindi.

Sazişin 11 bölməsindən 7-si iqtisadi əməkdaşlığa və onun prinsiplərinə həsr edilmişdi. Aİ Rusiyanı iqtisadiyyatı keçid xarakteri daşıyan ölkə kimi tanıdı. 1998-ci ildə tərəflər arasında azad ticarət zonasının yaradılması yollarının öyrənilməsinə başlanılmalı idi (5, 49). Korfu sazişi Rusiya ilə Aİ arasında siyasi dialoqun inkişafını, qarşılıqlı ticarətin ən əlverişli rejim prinsipi əsasında aparılmasını nəzərdə tuturdu.

1998-ci ildə Rusiya ilə Aİ arasında toxuculuq məhsulları ilə ticarət haqqında saziş, 2000-ci ilin noyabrında elmi-texniki əməkdaşlıq haqqında saziş imzalandı. 2000-ci ilin oktyabrında Avropa İttifaqı ilə Rusiya arasında enerji daşıyıcıları ilə bağlı müntəzəm dialoqun başlanması haqqında razılıq əldə edildi. Rusiya Avropanın enerji təhlükəsizliyi üçün məsuliyyətin bir hissəsini öz üzərinə götürüb oraya enerji ixracını artırmağı vəd etmişdi. Rusiya Avropa ölkələrinə neft və qazla yanaşı, elektrik enerjisi, neft və neft-kimyası sənayesinin məhsullarını satır və əvəzində Avropa ölkələrindən daha çox kapital və texnologiya almağa çalışır (2, 365).

2001-ci ildə Rusiya ilə Avropa İttifaqı arasında nüvə texnologiyaları və nüvə təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında sazişlər imzalandı. 2001-ci ilin mayında və oktyabrında keçirilmiş yüksək səviyyəli Aİ-Rusiya görüşlərinin qərarı ilə Ümumavropa iqtisadi məkanının konsepsiyasının hazırlanması haqqında qərar qəbul edildi. Avropa İttifaqı tələb edirdi ki. Rusiya qanunvericiliyi Avropa hüququna uyğunlaşdırılsın. Rusiya çalışırdı ki, Aİ onun Ümumdünya Ticarət təşkilatına daxil

olmasına kömək etsin və şərqə doğru genişlənmə zamanı onun mənafelərini nəzərə alsın.

2002-ci ilin mayında Aİ Rusiyanı bazar iqtisadiyyatlı ölkə kimi tanıdı. 2002-ci ildə Rusiya ilə Aİ arasında poladdan hazırlanmış bir sıra məhsullarla ticarət haqqında saziş imzalandı.

Rusiya ilə Aİ arasında əməkdaşlığın inkişafına təsir göstərən mühüm amillərdən biri Avropa inteqrasiyasının genişlənməsi, yəni Şərqi Avropa ölkələrinin Aİ-na daxil olmaq istəyi idi. Rusiya çalışırdı ki, inteqrasiyanın genişlənməsi onun Aİ ilə iqtisadi əlaqələrinə təsir etməsin. Şərqi Avropa ölkələrinin Rusiyadan qorxusu onları Aİ-yə və NATO-ya daxil olmağa sövq edən əsas amillərdən biri idi. Rusiya ehtiyat edirdi ki, Şərqi Avropa ölkələrinin Aİ-yə daxil olması onun təşkilatlarla əlaqələrinə təsir göstərəcək və onlar Rusiyaya qarşı iddialar irəli sürəcək. Rusiya çalışırdı ki, Aİ-nin genişlənməsi tərəflər arasında ticarətin artması ilə müşayiət edilsin. 2000-ci ilin sentyabrında tərəflər arasında inteqrasiyanın genişlənməsinin yekunları ilə bağlı məsləhətləşmələr başlanmışdı. Aİ-nin şərqə doğru genişlənməsi Kalininqradın Rusiyadan təcrid edilməsinə səbəb oldu. 2001-2002-ci illərdə Rusiya və Avropa İttifaqı arasında aparılan danışıqlar nəticəsində avtomobillərin və qatarların Litva ərazisindən «sadələşdirilmiş rejimlə» keçməsi üçün sənədlər hazırlandı. 2002-ci ilin oktyabrında Avropa İttifaqının Brüsseldə keçirilən sammitində Kalininqradla Rusiya arasında rabitə haqqında qərar qəbul edildi (6, 145).

Daxili işlər və ədliyyə sahəsində Avropa İttifaqının və Rusiyanın əməkdaşlığı əsasən iki istiqamətdə aparılırdı: 1) viza siyasəti və sərhəd nəzarəti; 2) mütəşəklli cinayətkarlığa qarşı mübarizə. Bu əməkdaşlıq Avropada vahid azadlıq, təhlükəsizlik və qayda-qanun məkanının formalaşması ilə paralel həyata keçirilir. Lakin Avropa İttifaqının Rusiya üçün sərt viza rejimi müəyyən etməsi onun Avropa hüquq məkanına qoşulmasını çətinləşdirir. Rusiya Şengen zonasına qoşulan dövlətlərin sayının artmasından narahat idi. Çünki, əvvəllər Rusiya ilə Pribaltika ölkələri və Polşa arasında mövcud olan liberal viza rejimi ilə bağlı sərhəd vilayətlərində yaşayan əhalinin sərhəddən sərbəst keçməsi, səyahət etməsi və ticarətlə məşğul olması asan idi.1999-cu ilin dekabrında Aİ-nin Helsinkidə keçirilən sammitində Rusiya ilə Aİ arasında mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə birgə fəaliyyət planı adlı sənəd qəbul edilmişdi. Planın əsas vəzifəsi Rusiyanın və Aİ-nin beynəlxalq aləmdə hüquqi əməkdaşlığını yaxşılaşdırmaq idi. Bu sənəd əsasında Rusiyalı ekspertlər Avropa polis idarəsi ilə müntəzəm məsləhətləşmələr keçirirdi. Rusiyanın vergi polisi və gömrük orqanları Avropanın hüquq mühafizə orqanları ilə sıx əməkdaşlıq edirdi. Qeyri-leqal mühacirlərə qarşı mübarizəyə xüsusi diqqət yetirilirdi.

2001-ci ilin oktyabrında Avropa İttifaqı ilə Rusiyanın sammitində beynəlxalq terrorçuluğa qarşı mübarizə haqqında bəyanat qəbul edildi. Tərəflərin polis idarələrinin qarşılıqlı fəaliyyəti terrorçuluğa qarşı mübarizənin başlıca metodu hesab edilirdi. Tərəflər terrorçu qrupların fəaliyyəti haqqında bir-birinə məlumat verməli idi. 2002-ci ilin noyabrında Rusiya ilə Aİ-nin sammiti terrorçuluğa qarşı mübarizə haqqında yeni birgə bəyanat qəbul etdi (3, 284). Tərəflər milli, reigonal və beynəlxalq miqyasda terrorçuluğa qarşı mübarizədə daha sıx əməkdaşlıq etmək niyyətində idi. Hüquqi əməkdaşlıq Rusiyanın Avropa İttifaqı ilə əməkdaşlığının yeni sahəsi olmaqla yanaşı həm tərəflərin, həm də bütövlükdə Avropanın mənafeyinə uyğun idi.

## ƏDƏBİYYAT


1. Барановский В.Г. Европейское сообщество в системе международных отношений. М.: Наука, 1986, 320 с.
2. Щемятенков В.Г. Европейская интеграция. М.: Международные отношения, Проспект, 2003. 400 с.
3. Право Европейского Союза / Отв. ред. проф. Кашкин С.Ю. М.: Наука, 2009, 304 с.
4. Европейский Союз на пороге XXI века: выбор стратегии развития / Под ред. Ю.А.Борко. М.: Эдиториал УРСС, 2001, 472 с.
5. Горбатова Е.Э Общая внешняя политика и политика безопасности Европейского Союза: развитие проблемы. М.: Огни, 2003, 64 с.
6. Европа перемен: концепции и стратегии интеграционных процессов / Под ред. Глухарева Л.И. М.: Крафт, 2006, 352 с.


## РАЗВИТИЕ ВЗАИМНЫХ ОТНОШЕНИЙ МЕЖДУ ЕВРОПЕЙСКИМ СОЮЗОМ И РОССИЙСКОЙ ФЕДЕРАЦИИ


**М.А.БАХЫШЕВ**


### РЕЗЮМЕ


Статья посвящена истории развития взаимных отношений Европейского союза с Россией. В статье излагается политико-правовые основы, на основе фактических материалов и различные направления отношений ЕС и России. В статье говорится еще о влиянии взаимоотношений ЕС с Россией в современных международных отношениях.



**Ключевые слова**: Европейский союз, Российская Федерация, формы и необходимость сотрудничества, безопасность, терроризм, Декларация Корфу, расширение на Восток.


## DEVELOPMENT OF MUTUAL RELATIONS BETWEEN THE EUROPEAN UNION AND THE RUSSIAN FEDERATION


**M.A.BAKHISHOV**


### SUMMARY


The article deals with the history of development of mutual relations between the European Union and Russia, and analyzes political-legal bases of various directions of relations between EU and Russia on the basis of actual materials. The article elucidates the influence of mutual relations between EU and Russia on modern international relations as well.



**Key words:** The European Union, The Russian Federation, the importance and forms of cooperation, security, terrorism, The Declaration of Corfu, expansion to the East.